AZƏRBAYCAN TEXNİKİ UNİVERSİTETİNİN

# KOMMUNİKASİYA STRATEGİYASI

BAKI-2025

# MÜNDƏRİCAT

GİRİŞ ........................................................................................................... 3
MİSSİYA ........................................................................................................ 3
MƏQSƏDLƏR ................................................................................................ 3
HƏDƏF AUDİTORİYA ........................................................................................ 4
KOMMUNİKASİYA VASİTƏLƏRİ ...................................................................... 5
KOMMUNİKASİYA PROSESLƏRİNİN İDARƏ EDİLMƏSİ .................................. 6
İNFORMASİYANIN KEYFİYYƏTİ VƏ TƏHLÜKƏSİZLİYİ .................................. 7
NƏTİCƏ .......................................................................................................... 8
SƏLAHİYYƏTLİ ŞƏXS ..................................................................................... 8

## GİRİŞ

Azərbaycan Texniki Universitetinin (AzTU) Kommunikasiya Strategiyası ISO 9001 (Keyfiyyətin İdarə Edilməsi), ISO 10002 (Müştəri Məmnuniyyətinin İdarə Edilməsi) standartlarına və həmçinin ESG (Avropa Ali Təhsil Məkanında Keyfiyyət Təminatı Standartları) və Azərbaycan Respublikası Təhsil Nazirliyinin akkreditasiya meyarlarına uyğun olaraq hazırlanmışdır. Strategiya AzTU-nun imicinin formalaşdırılmasına, dəyərlərinin təqdim edilməsinə, təhsil və elmi-tədqiqat sahəsindəki nailiyyətlərinin vurğulanmasına, eləcə də universitetin daxili və xarici əlaqələrinin yaxşılaşdırılmasına və tələbələr, müəllimlər və inzibati əməkdaşlar arasında məlumat axışının təkmilləşdirilməsinə fokuslanmışdır.

## MİSSİYA

Müasir, innovativ, çevik və keyfiyyətli kommunikasiya vasitələri ilə AzTU-nun mühəndislik elmləri və ağıllı texnologiyaların tətbiqi sahəsində regionda lider universitet olma yolundakı fəaliyyətini dəstəkləmək.

## MƏQSƏDLƏR

- Universitet daxilində effektiv məlumat mübadiləsini təmin etmək;
- Universitetin tədris və elmi nailiyyətlərini geniş auditoriyaya çatdırmaq;
- Universitetin imicini gücləndirmək;
- Universitetin ictimaiyyətlə əlaqələrini inkişaf etdirmək;
- Akkreditasiya tələblərinə uyğun olaraq hesabatlılıq və şəffaflığı təmin etmək;
- Tələbə mərkəzli kommunikasiya mexanizmlərini gücləndirmək;
- Beynəlxalq əməkdaşlıq və çoxdilli kommunikasiya imkanlarını artırmaq.

# HƏDƏF AUDİTORİYA

## 1. Daxili Auditoriya:

- Tələbələr
- Akademik heyət
- İnzibati heyət

## 2. Xarici Auditoriya:

- Dövlət orqanları
- Özəl müəssisələr
- Qeyri-hökumət təşkilatları
- Universitetlər, institutlar və elmi-tədqiqat mərkəzləri (yerli və beynəlxalq)
- Abituriyentlər
- Məzunlar

# KOMMUNİKASİYA VASİTƏLƏRİ

## 1. Daxili kommunikasiya vasitələri:

- Elektron poçt: Universitetdaxili məlumat və təlimatlar bu vasitə ilə yayımlanır.
- Təhsil İdarəetmə Sistemi: Təhsil İdarəetmə Sistemi tələbə və akademik heyət arasında ən mühüm kommunikasiya vasitəsidir.
- Telefon şəbəkəsi (IP, şəhərlərarası): Bu şəbəkə universitetin müxtəlif struktur bölmələri arasında effektiv və sürətli əlaqəni təmin edir.
- Tədbirlər: İclaslar, seminarlar, təlimlər, məlumatlandırma sessiyaları və digər tədbirlər tələbələrin, akademik və inzibati heyətin arasında əlaqələri gücləndirir.

## 2. Xarici kommunikasiya vasitələri:

- Rəsmi veb-sayt: AzTU-nun fəaliyyəti, akademik proqramları, elmi-tədqiqatları, beynəlxalq əlaqələri haqqında məlumatlar, həmçinin universitet ilə bağlı xəbər və elanlar rəsmi veb-sayt vasitəsilə yayımlanır.
- Sosial Media: Universitetlə bağlı məlumatlar Feysbuk, İnstaqram, X, Yutub, Teleqram və LinkedIn sosial platformaları vasitəsilə daha geniş auditoriyaya çatdırılır.
- Rəsmi müraciət məktubları (ənənəvi və ya elektron): Məktublar dövlət orqanları, özəl müəssisələr, qeyri-hökumət təşkilatları, universitetlər, institutlar və elmi-tədqiqat mərkəzləri (yerli və beynəlxalq) ilə olan fəaliyyətlərlə əlaqədar informasiya mübadiləsi vasitəsidir.
- Press-relizlər, mətbuat konfransları, mediaturlar: Bu vasitələr universitetin ictimaiyyətlə əlaqələrinin inkişafına təkan verir.
- Nəşrlər: Elmi əsərlər jurnalı, Machine Science jurnalı, hesabatlar, informasiya bülletenləri və AzTU-nun digər nəşrləri cəmiyyətin universitetin tədqiqatları və nailiyyətləri haqqında məlumatlılığını artırır.
- Promo və çap məhsulları: AzTU loqolu hədiyyələr, poster, afişa, broşüra və s. bu kimi vasitələr universitetin tanıtımı məqsədilə istifadə olunan effektiv alətlərdir.
- Konfranslar, sərgilər, yarmarkalar, infoturlar: AzTU tərəfindən təşkil olunan bu tədbirlər universitetin hədəf auditoriya ilə əlaqə qurması üçün bir vasitədir.
- Açıq qapı günləri: Bu cür tədbirlər abituriyentlərə AzTU-nun imkanlarını təqdim edərək onların universitetə olan marağını artırır və gələcək tələbə bazasını formalaşdırmağa kömək edir.

- Korporativ mobil nömrə: Operativ kommunikasiya vasitəsi kimi universitetlə ictimaiyyətin əlaqələrinin inkişafında korporativ nömrələr mühüm rola malikdir.
- Məzun şəbəkəsi (AzTU Məzun Assosiasiyası): Azərbaycan Texniki Universitetində bakalavriat, magistratura və doktorantura səviyyələri üzrə ali təhsilini başa vuran şəxslər AzTU-nun məzunları hesab olunur. Məzunların təcrübə və uğurları AzTU-nun imicinin gücləndirilməsində, əmək bazarı ilə əlaqələrinin möhkəmləndirilməsində, tələbə və məzunlar arasında əlaqələrin yaradılmasında, həmçinin universitetin inkişafı üçün məzunlar tərəfindən dəstək tədbirlərinin görülməsində effektivdir.
- Kütləvi e-poçt və SMS: Tələbələrə, müəllimlərə, əməkdaşlara və digər maraqlı tərəflərə vacib məlumatların daha sürətli çatdırılmasını təmin edir.
- Reklam kampaniyaları: Reklam kampaniyaları (sosial media, televiziya və radio, çap məhsulları) universitetin təklif etdiyi təhsil imkanlarının tanıdılması baxımından böyük önəmə malikdir.

## KOMMUNİKASİYA PROSESLƏRİNİN İDARƏ EDİLMƏSİ

- **Fəaliyyət Planı:** Strategiyada qarşıya qoyulan missiyanı yerinə yetirmək, proseslərin necə idarə ediləcəyini müəyyənləşdirmək və görüləcək tədbirlərin ardıcıllığını tənzimləmək məqsədilə **Fəaliyyət Planı** hazırlanır.
- **Koordinasiya:** Strateji rəhbər (kurator) kommunikasiya məqsədlərinə yönəlik fəaliyyətləri koordinasiya edir.
- **Rəy və əks-əlaqə sistemi:** Kommunikasiya prosedurlarının ISO 9001 standartlarına uyğun olub-olmadığını yoxlamaq üçün monitorinqlər və sorğular aparılır, tələbələr, əməkdaşlar və vətəndaşlardan gələn rəylər toplanaraq təhlil edilir, ISO 10002 standartı çərçivəsində müraciətlərin effektiv idarə edilməsi təmin olunur.
- **Təlim və inkişaf:** Müəllimlərin, inzibati işçilərin və tələbələrin kommunikasiya bacarıqlarını artırmaq məqsədilə təlim və inkişaf proqramları hazırlanıb icra edilir.
- **Şəffaflıq və ictimaiyyətə açıqlıq:** Universitetin strateji sənədləri, illik fəaliyyət hesabatları, eləcə də həyata keçirilən monitorinq və qiymətləndirmə nəticələri açıq şəkildə ictimaiyyətlə paylaşılır. Bununla da, vətəndaşların, tələbələrin, işəgötürənlərin və digər maraqlı tərəflərin universitetin qərarvermə proseslərini izləməsinə, fəaliyyətini qiymətləndirməsinə və konstruktiv töhfələr verməsinə imkan yaradılır.

- **Tələbə mərkəzli yanaşma:** Universitet, qərarvermə və planlaşdırma proseslərində tələbələrin iştirakını aktiv şəkildə təmin edir. Bunun üçün sorğular, əks-əlaqə platformaları, onlayn və fiziki şikayətlərin idarə olunması mexanizmləri fəaliyyət göstərir. Bu, tələbələrin universitet həyatında söz sahibi olmasını təmin edir, onların ehtiyac və maraqlarının nəzərə alınmasına imkan yaradır, həmçinin təhsil prosesinin daha adaptiv və tələbə yönümlü olmasına şərait yaradır.
- **Davamlı inkişaf və sosial məsuliyyət:** Azərbaycan Texniki Universiteti, bütün kommunikasiya təşəbbüslərində BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərini rəhbər tutur.
- **Beynəlmiləşmə:** Universitet, beynəlxalq tərəfdaşlarla əməkdaşlığı gücləndirmək məqsədilə çoxdilli kommunikasiya kanallarından istifadə edir və müxtəlif beynəlxalq tədbirlər, konfranslar, seminarlar və əməkdaşlıq proqramları təşkil edir.

## İNFORMASİYANIN KEYFİYYƏTİ VƏ TƏHLÜKƏSİZLİYİ

- **İnformasiyanın dəqiqliyi:** İnformasiya doğru və aydın şəkildə təqdim edilməlidir.
- **İnformasiyanın təhlükəsizliyi:** İstifadəçilərə aid məlumatlar qorunmalı və şifrələnmə təmin edilməlidir.
- **Rəqəmsallaşma və innovasiya:** Yeni texnologiyaların tətbiqi ilə operativ və interaktiv kommunikasiya kanalları yaradılır, rəqəmsal mühitdə AzTU-nun mövcudluğu genişləndirilir.

## NƏTİCƏ

ISO (9001, 10002) standartlarına, ESG (Avropa Ali Təhsil Məkanında Keyfiyyət Təminatı Standartları) və Azərbaycan Respublikası Təhsil Nazirliyinin akkreditasiya meyarlarına uyğun hazırlanmış Azərbaycan Texniki Universitetinin Kommunikasiya Strategiyası universitetin daxili və xarici əlaqələrinin yaxşılaşdırılmasını, məlumat axışının təkmilləşdirilməsini, AzTU barəsində məmnuniyyətin artırılmasını və ümumi keyfiyyətin idarə olunmasını təmin edir.

Texnologiyaların inkişafı ilə əlaqədar olaraq, sənəddə (Kommunikasiya Strategiyası) əlavə və dəyişikliklərin edilməsi mümkündür.

## SƏLAHİYYƏTLİ ŞƏXS

AzTU-nun kommunikasiya siyasətinə məsul şəxs universitetin sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektorudur.